Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 11 (1139) 20 yanvar - 22 yanvar 2016-cı il

# MASALLI - 2015

(əvvəli ötən sayımızda)

**Bu gün Masallı rayonu özünün sosial-iqtisadi inkişafının ən uğurlu dönəmini yaşayır. Bu da təkcə şəhərin özünün görkəmində, aparılan tikinti-abadlıq işlərində deyil, həm də insanların məişətinin, güzəranın yaxşılaşdırılmasında özünü büruzə verir. Təbii ki, tikilən hər bir bina, hər bir körpü, salınan yol Masallının təkcə bugününü, deyil, həm də sabahının inkişaf göstəricisidir.**

Üstəlik bunlar hamısı insanların xidmətinə verilir və zaman-zaman da bu görülən işlər özünün əhəmiyyətini bir daha sübut etmiş olacaq. Elə bu məntiqlə də Masallıda rayon icra hakimiyyəti başçısı və onun komandasının həyata keçirdiyi layihələri gözdən keçirəndə onda hər bir qəsəbə və kəndin ümumi mənzərəsi göz önünə gəlir. Bu kəndlərdən biri olan Qızılavar kəndi rayonun inzibati ərazi dairəsi kimi özünün uğurları ilə fərqlənir. Təkcə onu demək yerinə düşər ki, ötən illərdə Regionların İnkişafına Dair Dövlət Proqramının gerçəkləşdirildiyi bu kənddə istifadəyə verilmiş həkim məntəqəsi, elektron ATS, internet şəbəkəsi, poçt şöbəsi, tam orta məktəb, 19 mağaza və dükan, 8 avtomobillərin təmir sexi, 3 plastik qapı-pəncərə sexi və digər sosial obyektlər təkcə kənd sakinlərinin deyil, həm də bütün rayonun və eləcə də Masallıya qonaq gələn hər kəsin xidmətindədi. Həmin tam və ümumtəhsil məktəblərində şagirdlərin biliklərə yiyələnməsi üçün müasir tələblərə cavab verən şərait yaradılır, kompüter otaqları, müasir təhsil sisteminin mənimsənilməsi üçün gərəkli olan dərs vəsaitləri, bir sözlə, pdaqoji kollektivin böyük imkanları burada uğurlar əldə etməyə imkan verir. Məhz bunun nəticəsidir ki, həmin tam və ümumtəhsil məktəblərini bitirən məzunlar arasında ali məktəblərə qəbul olanların sayı da ilbəil artır.

> **"...Rayonun gələcək inkişafı ilə bağlı konkret proqramlar var. Xüsusilə indi infrastruktur layihələri icra edilir. Kənd yollarının tikintisinə vəsait ayrılır. Sosial obyektlər tikilir. Ölkəmizin uğurlu inkişafı regionların inkişafından böyük dərəcədə asılıdır".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Təbii ki, respublikanın bütün kənd rayonları kimi Masallıda da kənd təsərrüfatının demək olar ki, bütün sahələri planlı şəkildə inkişaf etdirilir. Aparılmış özəlləşdirmə, kənd adamlarının öz torpaq payına sahib olmaq imkanı burada müxtəlif növ məhsulların istehsalına şərait yaradır. Elə Qızılavar kəndində də əkinçilik, heyvandarlıq sahələri əsas məşğuliyyət hesab olunur. Bu kənddə buğda, arpa zəmilərinin hər il bol məhsul verməsi artıq adamların güzəranına öz müsbət təsirini göstərir. Dövlət qayğısı ilə əhatə olunmuş kənd sakinləri kimyəvi preparatlar, toxum və sairə ilə vaxtında təmin edildiklərindən əkin də vaxtında aparılır, məhsul da bol olur. Təkcə onu demək kifayət edər ki, ötən il Masallı rayonunun Qızılavar kənd sakinləri əkin sahələrindən bol məhsul götürə bilmişdilər.



Bu gün Masallı rayonunun digər kəndləri kimi, Qızılavar kəndində dəiri və xırdabuynuzlu mal-qaranın baş sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdı. Təbii ki, heyvandarlığa ayrılan bu diqqət onun yem bazasının da təmin edilməsini önə çəkib. Ona görə də həm otlaqların, həm də heyvanların bəslənməsi üçün gərəkli digər yemlərin təimn olunması üçün kənd sakinləri üçün müəyyən şəraitlər yaradılıb. Bax, elə bu konteksdən yanaşanda, onda məlum olur ki, heyvanların baş sayının artımı onun həm də bu sahəyə aid məhsulların istehsalına müəyyən təkan vermişdi. Yəni ət, süd, yumurta və digər məhsulların istehsalı xeyli artmışdı.

Yeri gəlmişkən, oun da xatırladıq ki, bu təsərrüfatda son illər arıçılığa da meyl artmışdı və artıq bu gün Qızılavar kəndində yüzə yaxın vərdi təsərrüfatda arı saxlanılır.

Bəli, Masallı rayonunun ən böyük kəndlərindən biri olan qızılavar kəndində ötən illə müqayisədə xeyli uğurlu layihələr gerçəkləşdirilir. Bunların arasında yol tikintisi xüsusi ilə diqqəti çəkir. Onu da qeyd etmək yerinə düşər ki, Ərkivan- Boradigah- Rüdəkənar yolunun 2 kilometri Qızılavar kəndinin içərisindən keçir. Təbii ki, bu magistralın kəndin ərazisindən keçməsi burada aparılan işlərin də kəndin ümumi mənzərəsinin dəyişməsində öz rolu var. kənddə həmçinin 1941-45-ci illər Böyük Vətən Müharibəsində həlak olanların xatirə kompleksi, "Ağsaqqallar" mərkəzi, futbol meydançası və digər sosial obyektlər də tikilib istifadəyə verilmiş və adını qeyd etdiyimz kompleksin ətrafında normal şərait yaradılmışdır.

**Rayonun inkişaf edən inzibati ərazi dairələrindən biri də Həsənli kəndidi. Ötən ilin gbrülən işlərin diqqət yetirəndə bu kənddə də Regionların İqtisadi İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq müəyyən addımlar atıldığı diqqəti çəkir. Yəni görülən işlər öz-özlüyündə bu inzibati ərazi dairəsinin uğurlarından xəbər verir. Biz həmin işlərin statistikasına diqqət yetirsək, onda görərik ki, "Kənd təsərrüfatı ili" olan 2015-ci ildə bu kənddə xeyli işlər görülmüşdü. Onların arasında ərazidə olan 2 orta və 2 tam orta məktəbin fəaliyyəti xüsusilə diqqətçəkəndir. Bu məktəblərdə 660 şagird və onların təlim-tərbiyəsi ilə məşğul olan 89 müəllim birgə çalışmaqla gənc nəsilə elmin sirlərini öyrədiblər. Ümumiyyətlə bu məktəbləri bitirən məzunların zaman-zaman ail məktəblərin müdavimi olmaq imkanı 2015-ci ildə də davam etmişdi. Nəticədə məktəb məzunlarından 5 nəfəri 500 baldan çox, 1 nəfəri isə 695 bal toplayaraq həm valideynlərini, həm də müəllimlərini sevindirmişdilər.**



***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ